HÜQUQ MƏSƏLƏLƏRİ KOMİSSİYASI

İKİNCİ İCLAS

HESABAT MƏRUZƏSİ

“TÜRKPA MİLLİ PARLAMENTLƏRİNİN PROSEDUR QAYDALARI VƏ PARLAMENT ÜZVLƏRİNİN MÖVQEYİ”

“TÜRKPA ÜZV ÖLKƏLƏRİ ARASINDA QANUNVERİCİLİK SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ”

1. TÜRKPA-nın Hüquq məsələləri komissiyası

a. Ötən iclas

Hüquq məsələləri Komissiyasının birinci iclası 2011-ci il 20 dekabr tarixində Ankarada keçirilmişdir. İclasda müzakirə olunan əsas məsələ “Konstitusional sistemdə TÜRKPA parlamentlərinin funksiya və vəzifələri və parlamentarilərin rolu” idi. İclasın sonunda qəbul olunmuş qərarlardan biri TÜRKPA ölkələrinin konstitusiyalarının üzv dövlətlərin dilinə tərcümə olunmasi idi. Konstitusiyaların tərcüməsi tamamlanmış və mətnlər kitab formatında çap olunmuşdur.

2.Qanunvericilik və Məclis ilə bağlı prosedur qaydalarının statusu

Baxmayaraq ki, Türkiyənin Konstitusiyası hakimiyyət qollarının iyerarxiyasını müəyyənləşdirmir, lakin dolayısı ilə göstərir ki, üstünlük Məclisə verilir. Eyni zamanda Məclisin sədrinin birinci yerdə olması bu faktın göstəricisidir. Bunun digər

göstəricisi prezidentin olmadığı təqdirdə onun səlahiyyətlərinin nə məhkəmə, nə də icra hakimiyyətinin numayəndələri tərəfindən deyil, Məclis sədri tərəfindən icra edilməsidir.

Hakimiyyətin bölünməsi ilə əlaqədar Məclisin statusunu müəyyənləşdirən digər konsepsiya parlamentin müstəqilliyidir. Məclisin müstəqilliyindən irəli gələrək, onun prosedur qaydaları konstitusional tənzimləmələrdən sonra əhəmiyyətli yer tutur. Türkiyə Respublikasında heç bir şəxs və ya orqan konstitutsiyada qeyd olunmayan dövlət hakimiyyətindən istifadə hüququna malik deyildir. Hakimiyyət qeyd-şərtsiz xalqa məxsusdur və səlahiyyətli orqanlar tərəfindən Konstitutsiyada göstərilən prosedurlara uyğun olaraq həyata keçirilir. Yurisdiksiya Türk xalqı adından Böyük Millət Məclisi tərəfindən həyata keçirilir və bu səlahiyyət başqa orqana ötürülə bilməz. Konstitutsiyanın 95-ci maddəsinə əsasən, Türkiyə Böyük Millət Məclisi öz fəaliyyətini Məclisin özü tərəfindən hazırlanan prosedur qaydalarının müddəalarına əsasən həyata keçirir.

Məclisin kənar müdaxilə olmadan öz iş metodunu, büdcəsini və təşkilati məsələlərini müəyyənləşdirməsini göstərən Parlamentin müstəqillik konsepsiyası metodoloji inzibati və maliyyə müstəqilliyi formasında 3 hissəyə ayrılır. Metodoloji müstəqillik prinsipinə əsasən, Məclis prosedur qaydaları vasitəsi ilə öz iş metodunu müəyyənlədirir və heç bir digər orqan tərəfindən xarici müdaxiləyə məruz qalmır. Konstitusiya məhkəməsinin apardığı audit müdaxilə deyil, yalnız konstitusional nəzarət auditidir. İnzibati müstəqillik qanunverici orqanın əvvəlcədən müəyyənləşdirilmiş fəaliyyətinin icrasına vacib yardımın göstərilməsi üçün inzibati təşkilatların yaradılması və bu tip fəaliyyətin həyata keçirilməsi qaydalarının qəbul edilməsini göstərir. Nəhayət maliyyə müstəqilliyi dedikdə qanunverici orqanın öz büdcəsini planlaşdırmaq və xərcləmək səlahiyyəti nəzərdə tutulur.

Türkiyə Böyük Millət Məclisinin funksiyalarını və strukturunu nizamlayan qaydalardan ibarət olan prosedur qaydaları, həmçinin, Məclis sədrliyi, Məclis Bürosu, Məşvərət Şurası, komissiyalar və Baş Məclisin də struktur və funksiyalarını nizamlayır, eləcə də qanun yaradılması prosesi, audit medotları və Məclisin digər fəaliyyətləri ilə bağlı müddəaları özündə ehtiva edir. Türkiyə Böyük Millət Məclisinin prosedur qaydaları hüquqi statusuna görə Parlament qərarı olmaqla, öz əsasını Konstitusiyadan götürür. Assambleyanın öz prosedur qaydalarını hazırlaması hakimiyyətin bölünməsi prinsipinə əsaslanan metodoloji müstəqilliyin tələbidir.

Türkiyə Böyük Millət Məclisinin fəaliyyətini tənzimləyən prosedur qaydaları 05.03.1973 –ci ildə ratifikasiya olunmuşdur. Adı çəkilən prosedur qaydaları 17 fəsil və 186 maddədən ibarətdir və Türkiyə Böyük Millət Məclisi öz fəaliyyətini prosedur qaydalarının müddəaları əsasında icra edir. Prosedur qaydalarına Məclisdə ratifikasiya olunduğu vaxtdan etibarən bir neçə dəfə düzəliş edilmişdir.

3. Türkiyə Respublikasında parlamentarilərin hüquqi statusu

Türkiyə Respublikasında parlamentarilərin hüquqi statusu Konstitusiyada və Türkiyə Böyük Millət Məclisinin prosedur qaydalarında fundamental şəkildə müəyyənləşdirilmişdir. Bir qanunvericilik dövründə parlamentarilərin sayı, seçki senzi və immunitet kimi fundamental məsələlər Konstitusiyada, parlamentarilərin vəzifə və səlahiyyətləri isə detallı olaraq prosedur qaydalarında öz əksini tapmışdır.

a. Türkiyə Respublikası Konstitusiyasına əsasən parlamentarilər
   Konstitusiyaya əsasən qanunvericilik hakimiyyəti Türkiyə Böyük Millət Məclisinə məxsusdur və bu səlahiyyət ötürülə bilməz (Maddə 7). Türkiyə Böyük Millət Məclisi ümumi seçkilər əsasında seçilmiş 550 parlamentaridən ibarətdir (Maddə 75). Parlamentarilərin parlamentə qanun layihəsi təqdim etmək səlahiyyəti vardır (Maddə 88). Türkiyə Böyük Millət Məclisi Bürosu parlamentarilərin arasından seçilmiş Məclis sədri, sədr-müavini, sədrliyin üzvləri və inzibati idarəçilikdən ibarətdir(Maddə 94).

b. Türkiyə Böyük Millət Məclisinin prosedur qaydalarına əsasən parlamentarilərin səlahiyyətləri
   Konstitusiyada və Prosedur Qanununda göstərilən səlahiyyətlərin bəziləri bir parlamentari tərəfindən istifadə olunduğu halda, digərləri konkret müəyyən edilmiş çoxluq tərəfindən istifadə oluna bilər. Məsələn, əgər qanun layihəsini təqdim etmək və ya etimadsızlıq haqqında təklifi təqdim etmək üçün bir parlamentarinin imzası kifayət edirsə, əksinə parlament araşdırmasının və ya plenar iclasın çağırılması üçün ən azı 20 parlamentarinin imzası tələb olunur.

   Xalq Təmsilçiliyi adlanan Konstitusiya maddəsinə əsasən Türkiyə Böyük Millət Məclisinin üzvləri seçildikləri region və ya vətəndaşları deyil, bütövlükdə xalqı təmsil edirlər. Parlamentarilər onları seçənlərin direktivləri və tələbləri əsasında deyil, bütün xalqa fayda naminə öz azad iradələri ilə fəaliyyət göstərirlər.

Prosedur qaydalarına əsasən parlamentarilərin vəzifə və səlahiyyətləri:

Qaydalar

- Qanun layihəsi təqdim etmək
- Komissiya iclaslarında iştirak etmək və komissiyanın sənədlərinə baxmaq
- Komissiyada daimi və ya müvəqqəti üzv olduqları partiya qruplarını təmsil etmək, iclaslarda iştirak etmək, fikir irəli sürmək, dəyişiklər üçün təklif vermək, səs vermədə iştirak etmək
- Öz qanun layihəsinin Plenar İclasın gündəliyinə birbaşa daxil olmasını tələb etmək və həmin qanun layihəsi ilə bağlı iclasda 5dəqiqəlik çıxış etmək
- Qanun layihəsinin Plenar İclasın gündəliyinə birbaşa daxil edilməsini tələb edən çıxış etmək
- Artıq gündəliyə daxil olmuş və komissiyada müzakirə olunmuş məsələnin komissiyanın üzvlərinin mütləq çoxluğunun yazılı və əsaslandırılmış tələbilə yenidən müzakirə olunması
- Qeydiyyata alınmağı tələb etmək
- Əvvəlki protokolların müzakirəsi
- Gündəlikdən kənar məsələlər haqqında danışmaq
- Plenar İclasda şifahi və ya yazılı nitq ilə çıxış etmək üçün icazə almaq
- Müzakirələr ərzində komissiya və ya hökumətə suallar vermək
- Prosedurlar haqqında danışmağı tələb etmək
- Şərh hüququ
- Qapalı sessiyanın keçirilməsini tələb etmək və qapalı sessiyadakı məsələ haqqında açıqlama vermək
- Qanun layihələrinin Sədrlik tərəfindən təşkil olunmuş komissiyalara verilməsinə etiraz etmək
- Sədrliyə təqdim olunmuş qanun layihəsinin qəbulu və ya ləğv edilməsi
- Plenar İclasda müzakirə olunmuş qanun layihələri və qanunların bəzi və ya bütün maddələri ilə bağlı suallar vermək və ya səs vermək üçün çıxış etmək
- Qanun layihəsi və ya qanun mətnindən imtina edilməsi, bütövlükdə qanun layihəsinin və ya onun hansısa spesifik maddəsinin komissiyaya geri qaytarılması, mətnə düzəlişlərin edilməsi, mətnə əlavə maddələrin daxil edilməsi, və belə əlavələr haqqında açıqlama verilməsi
- Qanun layihəsi və qanunun tam qəbulundan əvvəl “yekun nitq”in edilməsi
- Parlamentarilərə yazılı və ya şifahi yolla cavablandırılacaq sualların verilməsi

- Parlamentariyə verilən sualın cavablandırılması zamanı onun haradan seçilməsi barədə qısa əlavə izahat vermək hüququnu tələb etməsi
- "Ümumi müzakirələr" üçün təklif vermək
- Parlament təhqiqatı üçün təklif vermək
- Etimadsızlıqla bağlı təklif vermək
- Parlament istintaqı ilə bağlı təklif vermək
- Prezidentin vətənə xəyanətdə ittiham edilməsi ilə bağlı vəsatət qaldırmaq
- Gizli səsverməni tələb etmək
- Sədrliyə protokola vacib düzəlişlər edilməsi üçün müraciət etmək
- Tətbiq olunmuş intizam qaydalarına qarşı özünü və ya digər parlamentariləri müdafiə etmək

4. Qanunvericilik məsələləri ilə əlaqədar TURKPA üzv dövlətlərinin parlamentləri arasında əməkdaşlıq

TURKPA-nın təsisedici nizamnaməsində milli qanunvericiliklərin uzlaşdırılması və hüquqi məsələlər ilə bağlı informasiya mübadilsəsinin aparılması Assambleyanın məqsədləri sırasında göstərilmişdir. TURKPA üzv dövlətlərinin parlamentləri arasında hüquqi məsələlər ilə bağlı əməkdaşlığın genişləndirilməsi və şaxələndirilməsi qanunvericilik sahəsində fəaliyyətin keyfiyyətini artıracaqdır. Ümumi problemləri aradan qaldırmaq üçün ümumi həll yolları axtarıla bilər.

Bu məqsədlə :

- parlament rəsmiləri tərəfindən artıq həyata keçirilən qarşılıqlı səfərlərin artırılması
- üzv dövlətlərin parlamentlərinin rəsmiləri arasında qanunvericilik sahəsində təcrübə proqramlarının təşkil edilməsi
- effektiv informasiya və sənəd mübadiləsinin təşkil edilməsi
- məmurlar və ekspertlərin iştirakı ilə seminarların, təlim proqramlarının təşkil edilməsi, parlamentlərin müvafiq strukturları arasında ikitərəfli və çoxtərəfli görüşlərin keçirilməsi
- universitet tələbələri üçün parlamentlərdə beynəlxalq təcrübə proqramının təşkil olunması
- üzv dövlətlərin qeyri-hökumət təşkilatlarına qanunvericilik sahəsində təlimlərin keçirilməsi

- ümumi qanunvericilik problemlərini müzakirə etmək üçün elm xadimləri və ekspertlərin iştirakı ilə simpozium və konfransların təşkil edilməsi
- cari qanunvericilik problemlərini müzakirə etmək üçün üzv dövlətlərin parlament ekspertlərinin iştirakı ilə illik seminarların təşkil edilməsi
- qanunvericilik üzrə ekspertlər və parlament rəsmilərinin üzv dövlətlərin dillərini öyrənməyə təşviq edilməsi, bu məqsədlə dil kurslarının təşkil edilməsi
- üzv dövlətlərin parlament rəsmiləri arasında qarşılıqlı səfərlərin artırılması və şaxələndirilməsi tövsiyə edilir.